# Ali Məqamlı Rəhbərin on iki günlük müharibə şəhidlərinin anım mərasimindəki çıxışı - 29 /Jul/ 2025

Rəhman və Rəhim Allahın adı ilə.

Bu görüş şəhidlərimizin əziz ailələrinə dərin ehtiram ifadə etmək və son vaxtlarda baş vermiş məcburi müharibə nəticəsində qəlbi dağlanmış insanlara başsağlığı vermək məqsədi ilə təşkil olunmuşdur. Mən bu hadisədə şəhadətə çatmış əzizlərimizin – əziz komandirlərimizin, alimlərimizin, xalqımızın bütün yaxınlarına başsağlığı verməyi lazım bilirəm. Bütün şəhid ailələrinə başsağlığı verirəm; xüsusilə də ata-analarına, həyat yoldaşlarına, övladlarına başsağlığı verirəm. Onların mükafatı Allah-Taalanın dərgahındadır, nail olduqları iftixar isə bəşəri, İlahi və İslami iftixarın ən üstünüdür.

Bu on iki gündə İran İslam Respublikasında baş verən hadisələr İran xalqına böyük iftixar qazandırmaqla yanaşı – belə ki, bu gün bütün dünya xalqları bunu etiraf edir – İran İslam Respublikası və əziz xalqı öz qüdrətini, qətiyyətini, iradəsini, dirənişini və əlimizin dolu olduğunu dünyaya nümayiş etdirdi. Əgər indiyə kimi başqaları uzaqdan nəsə eşitmişdilərsə, indi İran İslam Respublikasının gücünü öz gözləri ilə yaxından gördülər. Bunlardan əlavə, daha mühüm olan budur ki, İran İslam Respublikası öz dövlətinin və ölkəsinin təməl sütunlarının misilsiz möhkəmliyini dünyaya nümayiş etdirdi.

Bu hadisələr İran İslam Respublikası üçün yeni deyildir. İnqilabın əvvəllərindən indiyə qədər ölkəyə qarşı dəfələrlə belə hadisələr baş vermişdi. Səkkiz illik məcburi müharibədən əlavə, müxtəlif provakasiyalar, zəif iradəli şəxsləri xalqa qarşı təhrik etmək, cürbəcür hərbi, siyasi, təhlükəsiz və s. yönümlü çevriliş cəhdləri kimi hadisələr törədilmişdi. Amma İran İslam Respublikası bunların hamısına qalib gəlmişdir. İran İslam Respublikası bu qırx beş ildən artıq müddətdə çətinliklərə dözərək düşmənin bütün planlarını zərərsizləşdirmiş və bu yöndə bütün düşmənlərin öhdəsindən gəlməyi bacarmışdır.

Diqqət etməli olduğumuz mühüm məqam budur ki, İran İslam Respublikası “din” və “elm” təməlləri əsasında qurulmuş və meydana gəlmişdir. “Din” və “elm” İran İslam Respublikasının quruluşunu təşkil edən iki ən əsas elementdir. Məhz buna görə də, xalqın sahib olduğu din və gənclərimizin bir çox müxtəlif sahələrdəki elmi düşməni geri çəkilməyə məcbur etmişdir. Bu, bundan sonra da eyni şəkildə davam edəcəkdir.

Beynəlxalq imperializmin və başda da cinayətkar Amerikanın qarşı çıxdığı şey, əslində, sizin dininiz və elminizdir. Onlar sizin dininizin, xalqın dərin imanının əleyhinədirlər, İslam və Quran kölgəsi altındakı bu birliyə qarşıdırlar; həmçinin sizin elminizə qarşıdırlar. İnqilabın qələbəsindən bu günə kimi İran əhalisinin sayı ikiqat artmışdır, amma tələbələrin sayı isə on qat, bəlkə daha çox artmışdır. Onları incidən bu inkişafdır. Onları narahat edən İran İslam Respublikasının müxtəlif elmi sahələrdə – istər humanitar, istər texniki, istərsə də dini elmlərdə – yeni ideyalar irəli sürə bilməsidir. Onlar buna qarşı çıxırlar. Nüvə proqramı, uranın zənginləşdirilməsi, insan haqları və s. adlar altında irəli sürdükləri məsələlər bəhanədir. Əsl məsələ budur.

İran xalqı Allahın köməyi ilə nə dinindən, nə də elmindən əl çəkməyəcəkdir. Biz dini inancımızın gücləndirilməsi, müxtəlif elmi biliklərimizin genişləndirilməsi və keyfiyyətinin dərinləşdirilməsi istiqamətində böyük addımlar atacağıq. Düşmənin bədxahlığına rəğmən, Allahın yardımı sayəsində İranı inkişaf və iftixarın zirvəsinə çatdıra biləcəyik! İran xalqı bu gücə sahibdir və inşallah, Allahın lütfü sayəsində bu gücü reallaşdırıb, nəticəyə çatdıracaqdır.

Allahın salamı, rəhməti və bərəkəti üzərinizə olsun.